BUSINESS
CONSULTING
COMPANY

# MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARINA UYĞUN MALİYYƏ HESABATLARI VƏ AUDİTOR RƏYİ

## Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti

## (01 YANVAR 2020 – 31 DEKABR 2020)

№-mjdfYvl4NQ
30 mart 2021-ci il

Bakı şəhəri

Auditor təşkilatı: "Business Consulting Company" MMC

VÖEN N: 1005134671

İcazə N: AT/198 31.10.2019-cu il.

İcazə N: SA/439 28.12.2019-cu il.

Ünvan: Bakı ş. C.Cabbarlı,Caspian Plaza.

E-mail: rehmanmemmedov@bcoc.az

Tel: (+994 12) 595 85 35

Mob: (+994 51) 574-12-10

Müqavilə №-2021/02-01 19.02.2021

**Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin İdarə Heyətinə**

# R Ə Y

**№- mjdfYvl4NQ** **30 mart 2021-ci il**

Biz Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin (bundan sonra "Şirkət") 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatını, məcmu gəlirə dair hesabatını, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatı, habelə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları 31 dekabr 2020-ci il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə qismən ədalətli əks etdirir.

## Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının tərtibi zamanı rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Rəhbərlik Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

## Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya

səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**" BUSİNESS CONSULTİNG COMPANY " MMC-nin**

**direktoru:** **Məmmədov Rəhman Hikmət oğlu**

M.Y.

**" BUSİNESS CONSULTİNG COMPANY " MMC-nin**

**auditoru:** **Məmmədov Rəhman Hikmət oğlu**

M.Y.

**Bakı, Azərbaycan Respublikası**

**30 mart 2021-ci il**